

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 37 (22.948)

23 fevral 2018-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 22-də Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərova "İstiqlal" ordenini təqdim edib.

Prezident İlham Əliyev deyib ki, siz uzun illərdir, ölkəmizin ictimai-siyasi həyatında fəal rol oynayırsınız. İyirmi ildən çoxdur ki, Milli Məclisin deputatı kimi ölkəmizin inkişafına böyük töhfə verirsiniz. Ondan əvvəl – 1990-cı illərin əvvəllərində Naxçıvan Ali Sovetinin, sonra Ali Məclisinin deputatı kimi ulu öndər Heydər Əliyevin rəhbərliyi altında işləmisiniz. Hazırda Azərbaycan Respublikası Ağsaqqallar Şurasının sədri kimi çox fəal iş aparırsınız. Azərbaycan dövləti sizin xidmətlərinizi yüksək qiymətləndirib. Siz 2008-ci və 2013-cü illərdə "Şöhrət" və "Şərəf" ordenləri ilə təltif olunmusunuz. Bu gün yubileyiniz ərəfəsində mən sizi Azərbaycan dövlətinin yüksək mükafatı olan "İstiqlal" ordeni ilə təltif etmişəm və bu yüksək ordeni sizə təqdim edirəm.

Dövlətimizin başçısı İlham Əliyev "İstiqlal" ordenini Fəttah Heydərova təqdim edib.

## Naxçıvan Muxtar Respublikasında heyvandarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Ölkədə qeyri-neft sektorunun vacib tərkib hissəsi kimi aqrar sahənin inkişaf etdirilməsi prioritet istiqamətlərdəndir. Belə ki, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair çoxşaxəli tədbirlər görülür, ərzaq və qida təhlükəsizliyinin birbaşa asılı olduğu aqrar sektorun inkişafına yönələn mühüm layihələr həyata keçirilir. Yeni qurulan və müasir avadanlıqla təchiz edilmiş infrastruktur, o cümlədən heyvanların cins tərkibinin yaxşılaşdırılması məqsədi ilə yaradılan süni mayalanma mərkəzləri heyvandarlığın inkişafında mühüm rol oynamaqdadır.

Mal-qaranın cins tərkibinin yaxşılaşdırılması üçün süni mayalanma tədbirlərinin həyata keçirilməsinin vacibliyini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Süni Mayalanma Mərkəzinin yaradılması işlərinin həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.2-ci yarımbəndində göstərilmiş məbləğin 3,0 (üç) milyon manatı Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 22 fevral 2018-ci il*

## Məntəqə seçki komissiyalarının sədrləri və katibləri üçün seminar-müşavirələr keçirilib



***Fevralın 22-də Babək rayon Mədəniyyət Evində 3 saylı Babək-Kəngərli-Naxçıvan Dairəsinin məntəqə seçki komissiyalarının sədrləri və katibləri üçün seminar-müşavirə keçirilib.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov Azərbaycan Respublikası Prezidenti seçkilərinin hazırlanması və keçirilməsi prosesində yerli icra orqanlarının vəzifələri və onların seçki komissiyaları ilə qarşılıqlı fəaliyyətindən danışaraq bildirib ki, Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən növbədənkənar prezident seçkiləri 2018-ci il aprelin 11-nə təyin olunub. Prezident seçkilərinin keçirilməsi ilə bağlı artıq hazırlıq işlərinə başlanılıb.

Bildirilib ki, muxtar respublikada bütün dairə seçki komissiyalarının, o cümlədən 3 saylı Babək-Kəngərli-Naxçıvan Dairəsinin müasir inzibati bina ilə təmin edilməsi, seçki məntəqələrinin fəaliyyəti üçün zəruri şəraitin yaradılması seçkilərin yüksək səviyyədə keçirilməsinə geniş imkanlar açır.

Seçkilərdə şəffaflığın təmini ilə bağlı mərkəzi və yerli icra hakimiyyəti orqanlarının üzərinə ciddi vəzifələr düşür. Prezident seçkilərində seçki məntəqələri əməkdaşlarından tələb olunan əsas məsələ səsvermə prosesində qanunvericiliyə ciddi əməl olunmasını, seçkilərin demokratik prinsiplər əsasında keçirilməsini təmin etməkdir.

Diqqətə çatdırılıb ki, Seçki Məcəlləsi ilə müəyyənləşdirilmiş səlahiyyətləri daxilində seçki komissiyaları seçkilərin hazırlanmasını, keçirilməsini, səsvermənin nəticələrinin və seçkilərin yekunlarının müəyyən edilməsini, vətəndaşların seçki hüququnun həyata keçirilməsini və müdafiəsini təmin edir, həmin hüquqlara riayət olunmasına da bu komissiyalar tərəfindən nəzarət edilir. Seçki komissiyalarının işinə müdaxilə edən və ya təsir göstərən şəxslər Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq inzibati və ya cinayət məsuliyyətinə cəlb edilirlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov bildirib ki, şəffaf seçkilərin keçirilməsi üçün ən vacib məsələlərdən biri də dürüst seçici siyahılarının hazırlanmasıdır. Seçici siyahıları müvafiq seçki dairəsinin seçki məntəqəsi ərazisində yaşayan və seçki hüququna malik olan Azərbaycan Respublikası vətəndaşlarının siyahılarıdır və bu siyahılar rəsmi seçki sənədlərindən biri sayılır. Buna görə də seçicilər haqqında məlumatları təqdim edən icra orqanının rəhbəri müvafiq məlumatların düzgünlüyünə, tamlığına və vaxtında verilməsinə görə qanunvericiliklə müəyyənləşdirilmiş məsuliyyət daşıyır.

Rəhman Məmmədov səsvermə prosesində qanunvericiliyə ciddi əməl olunmasının, seçkilərin azad, sərbəst, şəffaf, demokratik prinsiplər əsasında keçirilməsinin qarşıda duran əsas vəzifə olduğunu bildirmiş, əvvəlki seçkilərin təcrübəsindən bəhrələnərək qarşıdan gələn Prezident seçkilərinin də ən yüksək səviyyədə təşkil ediləcəyinə əminliyini qeyd etmişdir.

Sonra Babək Rayon İcra Hakimiyyəti başçısının müavini Nihal Məmmədovun "Məntəqə seçki komissiyalarının müvafiq inzibati binalarla, həmçinin tələb olunan inventar və avadanlıqlarla təmin olunması", rayon məhkəməsinin sədri Səxavət Bəylərlinin "Seçki hüququnun konstitusion əsasları, Azərbaycan Respublikası Prezidenti seçkilərində seçki hüququnun realizə mexanizmləri", rayon prokuroru Əsrafil Əsgərovun "Seçki hüquqlarının qorunmasında prokurorluq orqanlarının rolu və vəzifələri", Polis Şöbəsinin rəisi Teymur Quliyevin "Azərbaycan Respublikası Prezidenti seçkilərində Daxili İşlər Nazirliyi orqanlarının rolu və fəaliyyət istiqamətləri", 3 saylı Babək-Kəngərli-Naxçıvan Dairə Seçki Komissiyasının sədri Zahid Ələkbərovun "Seçki günü məntəqə seçki komissiyalarında səsvermənin təşkili və səsvermə prosesi başa çatdıqdan sonra məntəqə seçki komissiyalarının üzərinə düşən əsas vəzifələr" mövzularında məruzələri dinlənilib.

Çıxışlarda qeyd olunub ki, Babək rayonunun ərazisini əhatə edən 49 seçki məntəqəsi üzrə seçicilərin sayı 44 min 896 nəfərdir. Rayon ərazisində fəaliyyət göstərən 49 seçki məntəqəsindən 43-ü yeni tikilmiş binalarda yerləşdirilib və bu seçki məntəqələrinin 20 faizində veb-kameralar quraşdırılıb. Prezident seçkilərinin qanunauyğun qaydada keçirilməsi üçün seçicilərə və seçki komissiyalarına Seçki Məcəlləsinin müvafiq maddələrinə uyğun olaraq lazımi şərait yaradılacaq.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

✍ Səbuhi HƏSƏNOV



Fevralın 22-də 5 saylı Şahbuz-Babək Dairə Seçki Komissiyasında keçirilən seminar-müşavirədə Şahbuz Rayon İcra Hakimiyyəti başçısının müavini Tural Quliyevin, rayon məhkəməsinin sədri Allahverdi Bağırovun, rayon prokuroru Daşqın Rəhimovun, Polis Şöbəsinin rəisi Elnur İsmayılovun, 5 saylı Şahbuz-Babək Dairə Seçki Komissiyasının sədri Taməddin Hüseynovun məruzələri dinlənilib.

Çıxışlarda bildirilib ki, 5 saylı Şahbuz-Babək Dairə Seçki Komissiyası üzrə seçki günü 37-si daimi, 9-u seçki gününə 5 gün qalmış yaradılması nəzərdə tutulan 45 seçki məntəqəsi fəaliyyət göstərəcəkdir. 37 daimi seçki məntəqəsindən 25-i Şahbuz, 12-si isə Babək rayonunun ərazisində yerləşir. Dairə üzrə 27 min 350 seçici qeydə alınıb ki, onların 14 min 989-u Şahbuz, 12 min 361 nəfəri Babək rayonunun ərazisində yaşayan seçicilərdir. Onlardan 13 min 447-si kişi, 13 min 903-ü isə qadındır. Bu seçkilərdən 73-ü Şahbuz, 70-i Babək rayonunun ərazisində yaşayan 143 seçici ilk dəfə səsvermə hüququndan istifadə edəcəkdir. Eyni zamanda dairə üzrə yaşı 100-dən yuxarı olan 4 seçici də vardır.

Qeyd olunub ki, Şahbuz rayonu ərazisində fəaliyyət göstərəcək 25 seçki məntəqəsindən 24-nə yeni tikilmiş binalarda müasir iş otaqları ayrılıb, onlar lazımi inventar və avadanlıqlarla təmin edilib, telefonlaşdırılıb. Həmin məntəqələrdə komissiya üzvlərinin normal fəaliyyət göstərməsi, səsvermənin qanunauyğun formada keçirilməsi üçün hər cür şərait yaradılıb. Rayon üzrə prezident seçkilərində iştirak edəcək seçicilərin hər birinin öz seçimini azad şəkildə ifadə etməsi üçün bütün texniki imkanlar nəzərə alınıb.

* * *

***Sədərək Kənd İcra Nümayəndəliyinin akt zalında 1 saylı Şərur-Sədərək Seçki Dairəsinin, Sədərək rayonu üzrə əhatə etdiyi məntəqə seçki komissiyalarının sədrləri və katibləri üçün seminar-müşavirə keçirilib.***

Tədbirdə Sədərək Rayon İcra Hakimiyyəti başçısının müavini Yusif Seyidov, rayon məhkəməsinin sədri Zülfiqar Əhmədov, rayon prokuroru Valid Mustafayev, Polis Şöbəsinin rəisi Hikmət Baxşıyev məruzələrlə çıxış ediblər.



Çıxışlarda qeyd olunub ki, muxtar respublikanın bütün rayonlarında olduğu kimi, Sədərək rayonu ərazisində də mövcud olan məntəqələrin seçki komissiyaları üzvlərinin normal fəaliyyət göstərmələri üçün hər bir şərait yaradılıb. Belə ki, 1 saylı Şərur-Sədərək Seçki Dairəsi lazım olan inventarlarla, rabitə sistemi və sürətli internetlə təmin edilib.

Vurğulanıb ki, Sədərək rayonu üzrə seçicilərin sayı 10 min 335 nəfərdir. Bunlardan 5 min 192-si kişi, 5 min 143 nəfəri isə qadın seçicilərdir. İlk dəfə səs verəcək seçicilərin sayı 4 nəfərdir. Qarşıda duran əsas vəzifə rayonda seçki prosesinin demokratik və şəffaf başa çatdırılmasına nail olmaqdır.

**Xəbərlər şöbəsi**

***Uca zirvələrin, sıldırımlı qayaların qoynunda Gəmiqayanın sərin mehiylə tumarlanan, ecazkar təbiətilə insanı ovsunlayan bu kəndin vüqarlı dağlarının əzəmətini, həzin zümzümə ilə insanın ruhunu oxşayan Əyriçay və Saqqarsu çaylarının xoş nəğməsini, qalın meşələrinin füsunkar gözəlliyini, səmimi insanlarının qonaqpərvərliyini sözlə ifadə etmək üçün coşqun təbiətli şair olmaq lazımdır, bəlkə də...***

*Şəhərləşən kəndlərimiz*

## Əsrarəngiz təbiəti və şəhər görkəmilə insanı sehrinə salan yurd yeri –

# Xurs



Bəli, haqqında bəhs edəcəyimiz əsrarəngiz təbiətin xəsislik etmədiyi, məharətli bir rəssam tablosunu xatırladan, qonaqpərvər, istiqanlı insanların məskəni olan bu gözəl diyar Ordubad rayonunun Xurs kəndidir. Bu kənddə hər fəslin xüsusi gözəlliyi var, lakin təbiətin insanı məst edən sükutu içində uyumuş bu gözəlliyi qış fəslində seyr etmək bir başqa aləmdir. Tənbəllik etməyib, soyuqdan, şaxtadan qorxmayıb insanı ovsunlayan ecazkar təbiətin sehrinə düşmək üçün üz tutduq Gəmiqayanın ovcunda mürgüləyən bu yurd yerinə...

Gəmiqaya dağlarının ətəyində yerləşən kəndə qış aran kəndlərinə nisbətən daha tez qədəm qoyur. Odur ki, dekabrın ilk günlərindən burada dağlar-daşlar qış libasını geyinib, ağ örpəyə bürünüb. Zirvələrdən süzülüb gələn dumduru sular, çaylar yuxuya getmiş bərəkətli torpaqlara layla çala-çala Araza doğru üz tutub. Təbiətin füsunkarlığına, gözəlliyinə vurulan, bu yurddan ayrılmaq istəməyən su damlaları donub dərənin kənarlarında qalıb. Uşaqların səs-küyündən hiss edirsən ki, qış onların ən sevimli fəslidir. Təpədən dərəyə xizək sürən uşaqlar özlərini dünyanın ən xoşbəxt, ən qayğısız insanları hesab edirlər – yıxılıb əzilsələr belə...

Görüşünə gəldiyimiz kəndin gözəlliyini doya-doya seyr edərkən yolda ağbirçək, nurani bir qadınla – Vəsminaz Qasımova ilə qarşılaşırıq. Xoş çöhrəli qadın mehribancasına soruşur: “Gözəl balam, kimsən, kimlərdənsən?” Mehriban nənəyə kəndlə bağlı yazı hazırlamaq üçün gəldiyimizi bildirirəm.

– Ay bala, bu soyuqda çox dayanmayın, xəstələnərsiniz, gəlin nənənin qonağı olun, – deyir. Biz də heç tərəddüd etmədən nurani nənənin hər künc-bucağı qayğı, sevgi təsiri bağışlayan evinin qonağı oluruq. Ana təbiətin büründüyü ağappaq qarın soyuq nəfəsini duyan hər kəs kimi Vəsminaz nənənin də isti ocağında mavi alov şölələnir. Bu sobanın istisində qızınaraq pəncərədən quşbaşı qarın yağmasını izləməyin də ayrı mənzərəsi var... Burada olarkən nənə ilə keçmişdən bu günə xeyli söhbət etdik. Söhbətimizə nənənin böyük oğlu Eldar Arifli də qoşuldu, keçmişin qayğılarından, bu günün sevinclərindən söhbət açdı: “Nədənsə, insan bəxtəvər günlərindən daha çox çətinlik çəkdiyi anları xatırlayır. 90-cı illərin ağır günlərini heç vaxt unutmaram. Buradakı şəraitsizlik, bir vaxtlar yolların tamamilə sıradan çıxması, iki saatdan bir yanan işıq kənd camaatını lap canından bezdirmişdi. O vaxt sıxıntılar məngənəsində boğulan kənd adamlarının bir çoxu öz yurd yerlərindən didərgin düşmüşdü. Hər kəs şəhərə axın edib özünə gün-güzəran qurmağa çalışırdı. Elə mən də ailəmi dolandırmaq üçün şəhərə üz tutmuşdum. İllər sonra kənddə insanların dolanışığı, rahat yaşayışı üçün belə gözəl şərait yaradıldığını gördüm və yenidən el-obama qayıtdım. Bu gün nəinki bu kənddə, elə qonşu kəndlərdə də insanların rahatlığı üçün hər cür şərait yaradılıb, kənd camaatı hərtərəfli qayğı ilə əhatə olunub, yeni sosial obyektlər tikilərək istifadəyə verilib, fərdi təsərrüfatların genişləndirilməsi üçün lazımi dövlət dəstəyi göstərilir. Bu isə əhalinin işlə təmin olunmasında, məşğulluğunun artmasında xüsusi əhəmiyyət kəsb edir. Kənd camaatına göstərilən belə qayğı isə bizi el-obaya, torpağa qırılmaz tellərlə, tükənməz məhəbbətlə bağlayır”.

Eldar Arifli onu da qeyd etdi ki, bir neçə il bundan əvvəl dövlətimizin böyük qayğısı sayəsində Biləv-Göygöl avtomobil yolunun istifadəyə verilməsi bizim ən böyük çətinliyimizi aradan qaldırdı. Dümdüz yolları, bir-birindən yaraşıqlı binaları artıq kəndimizə qəsəbə libası geyindirib.

Eldar Arifli ilə bir qədər söhbətdən sonra Xurs kənd məktəbinə üz tutduq. Budur, yaraşıqlı binası ilə şəhər məktəblərindən geri qalmayan Xurs kənd tam orta məktəbi... Dövlətimiz tərəfindən təhsilə olan diqqət və qayğı bu kənddə də öz ifadəsini tapıb. 2013-cü il noyabrın 12-də məktəbin açılış mərasimində iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri deyib: ***“Təhsil ölkənin gələcəyinə xidmət edən bir sahədir. Bu gün muxtar respublikanın ucqar kənd yaşayış məntəqəsi olan Xursda yeni məktəb binasının istifadəyə verilməsi də dövlətin təhsilə göstərdiyi qayğının nəticəsidir. Məktəblərdə gənclər təhsilli böyüdülməklə yanaşı, onların əsl vətənpərvər ruhda tərbiyə olunması da diqqət mərkəzində saxlanılmalıdır. Xurs kənd tam orta məktəbində bu işlərin yerinə yetirilməsi üçün lazımi şərait yaradılmış, məktəb binası müasir təhsilin qarşıya qoyduğu tələblər səviyyəsində qurulmuşdur. Görülən işlər müəllim və şagirdlərin hərtərəfli böyüməsinə, öz bilik və bacarıqlarını artırmasına imkan verəcəkdir”.***

Bəli, bu gün yaradılan belə yüksək şərait müqabilində dövlətin insanlardan yalnız bir tələbi var: öz peşələrinə məsuliyyətlə yanaşmaq... Müəllimin həvəslə savadlı, intellektli, vətənpərvər gənclər yetişdirməsi, gələcəyə nur saçan şagirdlərinsə öz vəzifələrini bilməsi, səylə çalışması, elinə-obasına layiqli vətəndaş olması...

Məktəbdə təhsilin səviyyəsi və buradakı şəraitlə tanış olmaq üçün təhsil ocağının direktoru Mahir Məmmədova müraciət etdik. O bildirdi ki, əvvəllər köhnə, soyuq taxta binada fəaliyyət göstərən məktəb, bu gün yaraşıqlı binada elektron lövhələrlə, kompüterlərlə, müasir tədris vasitələri ilə təmin olunub. Zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan bina 110 şagird yerlikdir. Məktəbdə 2-si elektron lövhəli olmaqla, 11 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, kompüter otağı, kitabxana və idman zalı var. Xurs kənd tam orta məktəbində informatika dərslərinin yüksək səviyyədə tədris olunması üçün ayrıca kompüter otağı yaradılıb. Hərbi kabinədəki şərait şagirdlərin vətənpərvərlik ruhunda tərbiyə olunmasına, hərbi dərslərin yüksək səviyyədə tədris edilməsinə imkan verir.

Mahir Məmmədov onu da qeyd etdi ki, artıq bu ucqar kənddəki məktəbdə kadr çatışmazlığı problemi də öz həllini tapıb. Digər bölgələrdən buraya üz tutan gənc müəllimlərin yaşayıb fəaliyyət göstərmələri üçün də münbit şərait yaradılıb.

Onlardan həmsöhbət olduğumuz Adim Yusubov kəndlə, eləcə də məktəblə bağlı təəssüratlarını bizimlə paylaşdı: 6 ildən çoxdur ki, Xurs kənd tam orta məktəbində pedaqoji fəaliyyətlə məşğulam, – deyən gənc müəllim Kəlbəcər rayonundan məcburi köçkün olduğunu bildirir. O, ali məktəbi bitirdikdən sonra təyinatla buraya gələrək Azərbaycan dili və ədəbiyyat fənnini tədris edir.




Adim müəllim dedi ki, bu kənd indi müasirliyi, yeniliyi ilə heç də şəhərdən geri qalmır. İnsanların rahat yaşayışı təmin olunur, onların gün-güzəranı üçün hərtərəfli şərait yaradılır. Burada yaşamaqdan, bu yurdun insanlarını yaxından tanımaqdan məmnunluq duyuram.

Təhsil ocağında olarkən məktəb kollektivinin digər üzvü – Akif Cabbarovla da həmsöhbət olduq. Söhbət zamanı o, bizə, məni xeyli düşündürən “Xurs” toponiminin etimologiyası ilə bağlı məlumat verdi. Bildirdi ki, Ordubad rayonunun qədim yurd yerlərindən biri olan Xurs kəndi 1590-cı ildə Dərənürgüt nahiyəsində qeydə alınıb. Tədqiqatçıların fikrincə, bu ad qədim türk mənşəli gerus tayfasının adı ilə bağlıdır. X əsrin bulqar bədii abidəsi olan “Şan qızı dastanı”nda Xursun adı çəkilir. Bu dastanda rəvayət edilir ki, Xurs Günəşin oğludur. Alp Xurs metal külçə toplayır, körük qoşur, silah hazırlayır. Körüyün külündən dağ yaranır, buna Xurs-Alp dağı deyirlər. Əfsanəyə görə, sonralar bu söz fonetik dəyişikliyə uğrayaraq Ural şəklini alır. Ural yeraltı mineral sərvətlərlə zəngindir. Xurs metal emalı, faydalı qazıntı anlayışı ilə bağlı mifoloji obraz kimi tanınırsa, deməli, bu etnos-tayfa həmin istehsalla məşğul olurmuş. Bu fikirlərə əsaslanıb belə ehtimal etmək olar ki, Xurs adı qədim türkdilli gerus tayfasının adı əsasında yaranıb. Güman ki, tayfanın xurs qolu da kəndin indiki ərazisində məskunlaşaraq buraya öz tayfa adlarını vermişlər. Belə maraqlı məlumat üçün müəllimə təşəkkür edib, yolumuza davam edirik.

Qeyd edək ki, həmin il Xurs kəndində həyata keçirilən kompleks quruculuq işləri çərçivəsində kənd və xidmət mərkəzləri də insanların istifadəsinə verilib. Yeni qurulan belə müasir obyektlər, yaradılan yüksək iş şəraiti muxtar respublikanın inkişafından xəbər verir. Xidmət mərkəzində olarkən kənd ağsaqqalı Məhəmmədhəsən Səfərovla da həmsöhbət olduq. 81 yaşlı el ağsaqqalının kəndin keçmişi ilə bağlı rəvayət etdikləri olduqca maraqlıdır. Məhəmmədhəsən Səfərov kəndlə bağlı məlumatında bildirdi ki, kənd camaatı əvvəllər Xurs-Alp adlanan dağın başında məskunlaşıblar. Həmin vaxtlar bu torpaqlar Kərbəlayı İslamın tiyulu olub. 1920-30-cu illər ərəfəsində kənddə ağır zəlzələ baş verib. Evlər dağılıb, kənddə yaşayanların yarıdan çoxu faciəvi şəkildə həyatını itirib. Bu dövrdə artıq kolxoz sədri olan İslam bəy kənddən xeyli aşağıda, iki dağın arasında yerləşən qonşu kəndin ərazisini alaraq camaatın əksəriyyətini orada yerləşdirib. 1937-ci ildə isə bu xeyirxah insan iki qardaşı ilə birlikdə repressiya qurbanı olub. Elə o zamandan bu günədək kənd camaatı bu yurdu Yuxarı və Aşağı Xurs deyə fərqləndirir.

*Mehriban insanların məskəni olan bu yurd yerindən xoş təəssüratla ayrıldıq. Bu gün Ordubad rayonunun ucqar zirvəsində yerləşən Xurs kəndinin müasir simasını görmək, həmçinin sakinlərin dinc, firavan həyat yaşamalarının şahidi olmaq bizi də qəlbən çox sevindirdi.*

✍ **Gülcamal TAHİROVA**

*İstehsal müəssisələri*

## Bazarda yerli tərəvəz bolluğu yaradılıb

***Qış aylarında muxtar respublikamızda daxili bazarın yerli tərəvəz məhsulları ilə təmin olunmasında yaradılmış istixanaların mühüm rolu vardır. Əhalinin gündəlik istehlak tələbatında geniş paya sahib olan təzə tərəvəz məhsullarının yetişdirilməsi və alıcılar üçün münasib qiymətlərə satışını təşkil edə bilmək mövsümün bu aylarında istixanalar qarşısında duran əsas vəzifələrdəndir.***






Son illərdə istixanaların yaradılması muxtar respublikada tərəvəz məhsulları sarıdan idxaldan asılılığın aradan qaldırılması istiqamətində həyata keçirilmiş mühüm layihələrdəndir. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən aldığımız məlumata əsasən hazırda regionun müxtəlif yerlərində tərəvəz istehsalı üzrə 21 istixana təsərrüfatı fəaliyyət göstərir. Bu müəssisələrin yaradılması davamlı dövlət dəstəyi sayəsində mümkün olub.

Muxtar respublikamızda istixana təsərrüfatı ilə məşğul olan sahibkarlardan biri də Naxçıvan bağları MMC-nin direktoru Elçin Bağırovdur. O artıq dörd ildir ki, istixana təsərrüfatı ilə məşğul olur və Naxçıvan şəhərində 1,2, Kəngərli rayonunun Böyükdüz kəndində 4,6 hektar sahədə istixanaları vardır. Sahibkar deyir ki, ilin soyuq günlərində bazarı təzə tərəvəzlə təmin etmək nə qədər çətin olsa da, bu işin öhdəsindən gəlməyə çalışırıq. Çünki indi ekoloji təmiz tərəvəz məhsullarına olan tələbat yüksəkdir. Hamı istəyir ki, geni təmiz, yerli qida məhsulları əldə etsin. Naxçıvanda da dad-tamı ləzzətli, kimyəvi tərkibi də saf olan yerli tərəvəzlər həvəslə alınır.

“Naxçıvan bağları” istixanalarında hava-iqlim şərtləri, torpağın kimyəvi tərkibi, temperatur, nəmlik, bakterioloji şərait tam avtomatlaşdırılmış şəkildə tənzimlənir. İspaniya, Türkiyə, İsrail istehsalı olan bu avadanlıqlar kompüterlə idarə edilir. İstixananın illik istehsal həcmi 1000 tondur. Burada 8 sort pomidor və 3 sort xiyar yetişdirilib satışa verilir. Satış işləri də sürətlənib. Bazara çıxarılmamışdan əvvəl eko-tester avadanlığı ilə yoxlanılıb satışa göndərilən tərəvəzlər muxtar respublikanın istənilən yerinə təchizatlı avtomobillərlə daşınır. Yerli bazarın tələbatından artıq istehsal olunmuş tərəvəzlər Bakı, Sumqayıt, Gəncə, habelə Rusiyanın müxtəlif şəhərlərinə də göndərilir. “Naxçıvan bağları” etiketi və “Made in Azerbaijan” brendi ilə ixrac olunan məhsullar muxtar respublikamızdan kənarda da həvəslə alınır. Hər halda, digər yerli məhsullarımızda olduğu kimi, Naxçıvanda yetişən tərəvəzlərin də keyfiyyətinə bu torpağın zəngin minerallarının, təmiz suyu və bol günəşli günlərinin təsiri vardır.

İstixanada 50-dən çox işçi iş yeri ilə təmin olunub. Burada çalışan işçilərin keyfiyyətli məhsul istehsal etmələri üçün onlara hər cür şərait yaradılıb. Bu, onların məsuliyyətini də artırır. Çalışırlar ki, Naxçıvan Biznes Mərkəzində geniş stenddə sərgilənən, “Naxçıvan bağları” etiketi ilə satışa çıxarılan və “Made in Azerbaijan” brendi ilə ixrac olunan məhsullar həmişə yüksək keyfiyyətə və ekoloji standartlara cavab versin.

✍ **Əli CABBAROV**

*Naxçıvan xarici mediada*

# "Spero" xəbər agentliyi Azərbaycanda müsəlman tolerantlığını qiymətləndirir



"Spero" qəzetinin əməkdaşı, eyni zamanda geosiyasi mövzulara dair səyyah məruzəçi kimi də tanınan Peter Tase Bosniya və Hersoqovinanın Travnik Beynəlxalq Universitetində Dağlıq Qarabağ müharibəsi zamanı erməni təcavüzünə məruz qalan Azərbaycan tərəfindən təbliğ edilən multikulturalizm dəyərlərinin müdafiəsinə yönələn məruzə ilə çıxış etmişdir. Ötən ilin oktyabr ayında Peter Tase "Spero" qəzetinə verdiyi müsahibədə qeyd etmişdir: "Erkən orta əsrlərdən bəri Azərbaycanda mövcud olan dini elmlər arasında İslam dininin cərəyanlarından biri olan, həmçinin Qərbdə sufizm adı ilə də tanınan kamillik və mənəvi dəyərlərin təbliğini aşılayan təsəvvüf elmi geniş yayılmışdır. Etnik və dini mənsubiyyətlərindən asılı olmadan bütün insanlar arasında sevgi, qardaşlıq və sülhü təşviq edən sufizm cərəyanı tolerantlığın İslam aləmindən digər din, mədəniyyət və irqlərə də sirayət etməsində mühüm rol oynamışdır".

Peter Tase erməni nəzarətində olan bölgə ilə sərhəd mövqedə yerləşən Azərbaycanın Tərtər rayonuna səfərindən yenicə qayıtmışdır.

Travnik Beynəlxalq Universitetində məruzəsi zamanı cənab Tase ən qədim dövrlərdən bəri Azərbaycanın nümayiş etdirdiyi tolerantlığı örnək seçərək bildirmişdir: "Yəhudilər ilk dəfə eradan əvvəl 5-ci əsrdə qonaqpərvər diyar olan Azərbaycana pənah gətirmişlər. Eramızın 17-ci əsrində isə, qubalı Fətəli xan şimal-şərqi Azərbaycanda əsas xanlıq olan Qubaya yaxın ərazidə böyük bir qəsəbə salmaq məqsədilə yəhudilər üçün torpaq güzəştləri tətbiq etmişdir. Burada yerləşən evlərin dam örtüyünün rənginə uyğun olaraq sözügedən ərazi "Qırmızı Qəsəbə" adlanır. Qırmızı Qəsəbə dağlıq bölgədə yaşayan yəhudi icmasının ən çox və ən sıx məskunlaşdığı yer kimi tanınır. Tarix boyu Azərbaycan yəhudiləri üçün, sadəcə, təhlükəsiz məkan olmaqla qalmamış, bununla yanaşı, çoxsaylı beynəlxalq mətbuat nəşrində Azərbaycan "anti-semitizmin mövcud olmadığı" yeganə ölkə kimi səciyyələndirilmişdir. Hal-hazırda Azərbaycanda 7 sinaqoq fəaliyyət göstərir".

Ötən ilin oktyabrın 20-də Peter Tase məruzəsi zamanı görkəmli memar Əcəmi Naxçıvaninin indiyədək diqqəti cəlb edən innovasiyaları, Möminə xatın türbəsi, Əshabi-Kəhf ziyarətgahı, Gülüstan türbəsi, Culfa şəhəri və Əlincə qalasının yerləşdiyi Azərbaycanın Naxçıvan Muxtar Respublikası, həmçinin Bakı, İçərişəhər kimi dünya əhəmiyyətli memarlıq nümunələri ilə zəngin bölgələri, o cümlədən digər dini və mədəni abidələri haqqında geniş söz açmışdır.

Mühazirənin ikinci hissəsi tarixi Sovet Ermənistanı və Azərbaycanı dövrünə söykənən və 1987-ci ildə başlayan Dağlıq Qarabağ müharibəsindən bəri Azərbaycanın mədəni və dini abidələrinin 25 ildən artıq bir dövr ərzində erməni vandalizminə məruz qalması fonunda ətraf mühitə dəymiş ziyanlara həsr olunmuşdur. Cənab Tase müharibə zamanı erməni silahlı qüvvələri tərəfindən günahsız azərbaycanlıların qətlə yetirilməsindən doğan təəssüfünü dilə gətirmiş, Ermənistanın Azərbaycana məxsus ərazilərdə separatçı "Artsax Respublikası" yaratdığını, habelə bu qondarma rejimin beynəlxalq ictimaiyyət tərəfindən hələ də tanınmadığını vurğulamışdır. Ermənistan və Azərbaycan arasında heç bir sülh müqaviləsi imzalanmamış, düşmənçilik isə bu günədək davam etməkdədir.

"Ermənistan və Azərbaycan arasında hökm sürən silahlı münaqişənin tarixi Azərbaycanın Xankəndi bölgəsinin erməni təcavüzünə məruz qaldığı 1987-ci ilin son dövrünə təsadüf edir. Erməni işğalı nəticəsində yüzlərlə azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. 1991-ci ilin sonu, 1992-ci ilin əvvəllərində mövcud konflikt tam mənada müharibəyə çevrilmişdir. Sovet İttifaqının süqutundan sonra Azərbaycanın daxilindəki siyasi səbatsızlıqdan, həmçinin xarici təzyiqlərdən yararlanan erməni silahlı qüvvələri tərəfindən xaricdən hərbi dəstək alınmaqla Dağlıq Qarabağı və yeddi ətraf rayonu işğal olunmuşdur", – deyə Peter Tase fikirlərini ifadə etmişdir.

Daha sonra Peter Tase bildirmişdir: "İşğal olunmuş ərazilərdə Ermənistan tərəfindən etnik təmizləmə siyasəti aparılır. Separatçı rejim tərəfindən idarə edilən "Artsax Respublikası" ermənilərin bu prosesi öz müqəddəratını təyinetmə kimi qələmə versə də, danılmaz faktdır ki, etnik təmizləmə siyasətinin nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün öz doğma yurd-yuvasından didərgin düşmüşdür. Hazırda Azərbaycan ərazisinin 20 faizi erməni silahlı qüvvələrinin işğalı altındadır. Naxçıvan Muxtar Respublikası isə 20 ildən çoxdur ki, blokada şəraitindədir. Erməni işğalı nəticəsində, təxminən, 900 qəsəbə, 22 muzey, 4 incəsənət qalereyası, tarixin nadir nümunələrindən olan 40 min muzey eksponatı, 44 məbəd, 9 tarixi bina və 9 məscid dağıdılmış, qarət edilmiş və yandırılmışdır. Bundan əlavə, ermənilər 927 kitabxanada mühafizə edilən 4,6 milyon nüsxə kitab və dəyərli tarixi əlyazmaları məhv etmişdir.

Məruzəsinin yekun hissəsində cənab Tase Azərbaycan Respublikası ilə Bosniya və Hersoqovina arasında mövcud ikitərəfli əlaqələrə toxunmuş, ötən ilin 17 mart tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Bosniya və Hersoqovina həmsədrlərindən biri, eyni zamanda Balkan ölkəsinin dövlət başçısı olan Mladen İvanic arasında baş tutan zirvə görüşünü xatırlatmışdır. Ötən ilin sentyabr ayında Prezident İlham Əliyev Bosniya və Hersoqovinanın digər həmsədri Bakir İzetbeqoviclə ikitərəfli görüş keçirmişdir.

Mühazirədən sonra suallara aydınlıq gətirən cənab Tase dil tədqiqatı baxımından geniş imkanlara malik olan Çin Mədəniyyəti Mərkəzi, Bakı Amerika Mərkəzi və Azərbaycan Dillər Universitetinin müvafiq fakültəsi haqqında müsbət fikirlərini dilə gətirmişdir. Sonrakı radio-müsahibələrinin birində cənab Tase Ermənistan və Azərbaycan arasında mövcud həll olunmamış konfliktdən doğan problemləri müzakirə edərkən, eyni zamanda Azərbaycanda şahid olduğu multikulturalizm atmosferini yüksək qiymətləndirdiyini qeyd etmişdir.

**Speronews.com**

# Xocalı faciəsi unudulmayacaq

***Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatı Xocalı faciəsinin 26-cı ildönümü ilə bağlı rayonun Qabıllı kəndində tədbir keçirib. Kənd mərkəzində keçirilən tədbirdə iştirakçılar əvvəlcə 1992-ci ilin fevralında erməni silahlı birləşmələri tərəfindən həyata keçirilmiş Xocalı soyqırımı qurbanlarının xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.***



Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Sevda Quliyeva tədbirdə çıxış edərək bildirib ki, bəşər tarixinin ən amansız və qanlı hadisələrindən sayılan Xocalı soyqırımından 26 il ötür. Tarixin bütün dövrlərində xalqımıza qarşı xəyanətkar mövqedə duran, fürsət düşən kimi öz məkrli niyyətlərini həyata keçirən ermənilər XX əsrin sonlarında – Sovetlər Birliyi adlandırılan nəhəng imperiya süquta uğrayan zamanda öz mənfur simalarını bir daha büruzə verdilər.

Qeyd olunub ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni quldurları imperiya qoşunlarının Xankəndidəki 366-cı motoatıcı alayının köməyi ilə gözlənilmədən hücuma keçib, Azərbaycanın ən qədim yaşayış məntəqələrindən sayılan Xocalını yerlə-yeksan ediblər. İnsanlığa sığmayan bu amansız soyqırımı hadisəsi, ağır cinayət aktı nəticəsində 613 nəfər günahsız soydaşımız xüsusi qəddarlıqla qətlə yetirilib, əliyalın, köməksiz insanlar ağır yaralanıb, itkin düşüblər.

Diqqətə çatdırılıb ki, ermənilərin Xocalıda törətdikləri vəhşiliklər, qətliamlar xalqımıza qarşı əvvəlcədən planlaşdırılmış soyqırımı siyasəti olmaqla yanaşı, həm də bütün bəşəriyyətə, insanlığa yönəldilmiş ağır cinayətdir. Xocalıda baş verənlər soyqırımı aktı olsa da, o zaman Azərbaycana rəhbərlik edənlərin məsuliyyətsizliyi və səhlənkarlığı üzündən erməni vandalizminin gerçək mahiyyəti barədə dünya ictimaiyyəti yetərincə məlumatlandırılmayıb, faciəyə siyasi-hüquqi qiymət verilməsinə səy göstərilməyib.

Vurğulanıb ki, yalnız ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Xocalıda törədilən cinayətlər barədə əsl həqiqətlər dünya ictimaiyyətinə çatdırılıb. 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının Milli Məclisi 26 fevralı Xocalı Soyqırımı Günü kimi qəbul edib. 1997-ci il fevral ayının 25-də isə ulu öndərimiz Heydər Əliyevin "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" Sərəncamı ilə hər il fevral ayının 26-sı saat $17^{00}$-da Azərbaycan Respublikasının ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunur. Bu gün dahi şəxsiyyətin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan həqiqətlərinin, o cümlədən Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması istiqamətində ardıcıl işlər görülür. Ölkə başçısının 2014-cü il 13 fevral tarixli "Xocalıya ədalət" kampaniyasının keçirilməsi ilə bağlı tədbirlər haqqında" Sərəncamına əsasən bu tədbirlərin beynəlxalq səviyyədə daha da genişləndirilməsi qərara alınıb.

Tədbirdə Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatı Qabıllı kənd ərazi ilk partiya təşkilatının sədri Sona Cəfərova, partiyanın Kəngərli Rayon Təşkilatı Gənclər Birliyinin üzvü Ehtiram Mehbalı çıxış edərək XX əsrdə ermənilərin xalqımıza qarşı dəfələrlə törətdikləri soyqırımı hadisələrindən danışıb, Xocalı faciəsindən bəhs ediblər.

Sonda məktəblilərin təqdimatında Xocalı faciəsinə həsr olunmuş şeirlər söylənilib, faciə ilə bağlı videomateriala baxış olub.

**Babək İSMAYILOV**

# "Ümummilli lider Heydər Əliyev və Azərbaycanda ordu quruculuğu" mövzusunda açıq dərs keçilib



***Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində Heydər Əliyev adına Hərbi Liseyin kursantlarının iştirakı ilə açıq dərs keçilib.***

Dərsdə muzeyin direktoru Ramil Orucəliyev "Ümummilli lider Heydər Əliyev və Azərbaycanda ordu quruculuğu" mövzusunda danışıb. Bildirib ki, Azərbaycanın müstəqil bir dövlət kimi formalaşması, bu dövlətin qarantı olan Azərbaycan Ordusunun yaradılması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin 1990-1993-cü illərdə – Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövrdə ölkəmiz üçün gördüyü ən böyük xidmətlərindən biri muxtar respublikanın təhlükəsizliyini təmin etməklə yanaşı, burada Azərbaycanın ilk milli nizami ordu hissələrini yaratmasıdır. Ümummilli liderimiz Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildikdən sonra ordu quruculuğu istiqamətində mühüm qərarlar qəbul edilib, Naxçıvanda Dövlət Müdafiə Komitəsi yaradılıb. 1992-ci il sentyabrın 15-də Naxçıvan Muxtar Respublikası ərazisində ilk milli ordu qurumlarından biri olan 705 saylı ələhiddə gücləndirilmiş motoatıcı briqada təşkil edilib. 1992-ci il sentyabrın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasının müdafiəsinin və sərhədlərinin qorunmasının təşkili haqqında" Qərar qəbul olunub.

Vurğulanıb ki, bu gün müstəqilliyimizin, dövlətçiliyimizin qarantı təməli ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan Milli Ordumuzdur. Ümummilli liderimizin ordu quruculuğu sahəsində müəyyənləşdirdiyi siyasətin uğurla həyata keçirilməsi ordumuzun qüdrətini günü-gündən artırır. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası da ordu quruculuğu sahəsində həyata keçirilən ciddi və məqsədyönlü tədbirlər nəticəsində, sözün həqiqi mənasında, düşmən qarşısında alınmaz qalaya çevrilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində Əlahiddə Ümumqoşun Ordunun birləşmə və hissələri, eyni zamanda zabit və gizirlər üçün yeni binalar – əsgəri-məişət-yaşayış kompleksləri, müxtəlif təyinatlı obyektlər tikilib istifadəyə verilib. Bu hissələrin silah-sursatla təminatı da qat-qat yaxşılaşdırılıb.

Qeyd olunub ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ordu quruculuğu ilə bağlı həyata keçirdiyi tədbirlər bu gün onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının "Azərbaycan Respublikası Müdafiə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2013-cü il 18 dekabr tarixli Fərmanına əsasən 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordunun yaradılması Naxçıvanın müdafiə potensialının, hərbi hissələrin döyüş hazırlığının daha da yüksəlməsinə zəmin yaradıb.

Sonda kursantlar muzeyin ekspozisiyası ilə tanış olublar.

**Fatma BABAYEVA**

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin iştirakı ilə "Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən tarixi-memarlıq abidələri" mövzusunda maarifləndirici tədbir keçirilib. Muxtar respublikanın Mədəniyyət və Turizm Nazirliyi ilə birgə təşkil olunan tədbiri xidmətin əməkdaşı Samir Abbasov açıb.***

# Dövlət Miqrasiya Xidmətində növbəti maarifləndirici tədbir



Slaydların nümayiş etdirildiyi tədbirdə Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Əli Rzayev mövzu ilə bağlı ətraflı məlumat verib. Bildirilib ki, Naxçıvan antik və orta əsrlər dövrünə aid mədəniyyət nümunələri və tarixi abidələrlə – qədim yaşayış yerləri, şəhərlər, möhtəşəm qalalar, xatirə memarlığının ən mükəmməl nümunələri olan türbələr və təkrarsız təbiət abidələri ilə zəngindir. Azərbaycan türkləri Naxçıvanda böyük mədəniyyət və özünəməxsus adət-ənənələr sistemi yaradıblar. İslam dininin qəbulundan sonra isə Naxçıvan memarları İslam memarlıq ənənələrindən də bəhrələnib, bir-birindən dəyərli türk-islam mədəniyyəti nümunələri ilə tarix və mədəniyyətimizi daha da zənginləşdiriblər.

Vurğulanıb ki, muxtar respublikamızda xalqın, torpağın canlı yaddaşı sayılan tarixi-mədəni incilərin bərpası istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. Son illər Möminə xatın türbəsi konservasiya edilib, "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksində yenidənqurma işləri aparılıb, Yusif Küseyiroğlu və Nuh türbələri, imamzadələr, muxtar respublika ərazisindəki buzxana abidələri, "Came" məscidi, Zaviyə mədrəsəsi, İsmayılxan hamamı, Xan sarayı, Culfa rayonundakı Xanəgah Abidə Kompleksi, Ordubad rayonundakı Aza körpüsü, Qeysəriyyə, Naxçıvanqala və digər tarixi abidələr əsaslı bərpa olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı sərəncamlar tarixi-mədəni irsimizin öyrənilməsi, qorunması, tədqiqi və təbliği baxımından mühüm əhəmiyyətə malik olan dövlət sənədləridir. Görülən tədbirlər nəticəsində son 22 ildə muxtar respublikada 70-ə yaxın tarix və mədəniyyət abidəsi əsaslı təmir və bərpa olunaraq xalqımıza qaytarılıb.

Sonra tədbir iştirakçılarının "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinə ekskursiyaları olub.

**Nail ƏSGƏROV**

## Culfa Rayon Tarix-Diyarşünaslıq Muzeyinə sakinlər tərəfindən 75 eksponat təqdim olunub



Culfa rayonunun Ərəfsə kənd sakinləri Nail Əliyev, Aqil Qələndərov, Ləkətağ kənd sakini Zakir Hüseynov, Ərəzin kənd sakini Mahmud Zeynalov, Kırna kənd sakini Sona Əsgərova tərəfindən qədim tariximizi və mədəniyyətimizi əks etdirən xalça, toxuculuq məmulatı, mis və saxsı qablar, səhəng, cehrə, kəlağayı, dibək, dəyirman və xırmanda işlədilən təsərrüfat alətləri, çıraq, dəmir dəbilqə və digər nümunələrdən ibarət 75 eksponat Culfa Rayon Tarix-Diyarşünaslıq Muzeyinə təqdim edilib.

Bu münasibətlə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova bildirib ki, nazirliyin tabeliyində 29 muzey və muzeytipli müəssisə fəaliyyət göstərir. Bu muzeylərdə xalqımızın tarixini, həyat tərzini, adət-ənənələrini özündə əks etdirən 140 minə yaxın maddi-mədəniyyət nümunəsi mühafizə olunaraq saxlanılır. Tariximizin və mədəniyyətimizin saxlanc yeri olan muzeylərimizə son illərdə göstərilən dövlət qayğısı, xüsusilə qeyd edilməlidir. Keçən il muxtar respublikanın muzeylərini 445 min 747 nəfər ziyarət edib ki, bunların arasında həm yerli əhali, həm də Azərbaycanın digər regionlarından muxtar respublikamıza gələn qonaqlar, həmçinin 110 mindən çox xarici vətəndaş olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamına əsasən bu gün muzeylər ilə orta məktəblər arasında distant dərslər təşkil olunur, həmçinin yetişməkdə olan gənc nəsil üçün açıq dərslər keçilir.

Nazir bildirib ki, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən muzey fondlarının zənginləşdirilməsi, onların yeni eksponatlarla təmin olunması daim diqqət mərkəzində saxlanılır. Bu prosesdə muzey əməkdaşları və muxtar respublika sakinləri yaxından iştirak edirlər. Keçən il ərzində muzeylərimizə 1340 eksponat daxil olub ki, bu eksponatlar da nazirliyə və muzeylərə könüllü olaraq təqdim edilib və bu məqsədlə muzeylərdə, ümumilikdə, 11 təqdimat keçirilib. Təqdimat mərasimləri içərisində, həmçinin AMEA Naxçıvan Bölməsinin Əlyazmalar İnstitutuna da qədim kitablar verilib.

Muzeyə eksponat hədiyyə edənlərdən Aqil Qələndərov və Sona Əsgərova çıxış edərək bildiriblər ki, maddi-mədəni irsimizin qorunması baxımından belə tədbirlər əhəmiyyətlidir. Bu eksponatların muzeylərimizə verilməsi xalqımıza məxsus olan mədəni sərvətimizin yaşadılması və gələcək nəsillərə çatdırılmasına xidmət edir.

Culfa Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Pərvin Həsənov və rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Gülər Əhmədova çıxış edərək mədəniyyətimizin inkişafına göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə bütün mədəniyyət işçiləri adından minnətdarlıq ediblər.

Sonda muzeyin ekspozisiyasına baxış olub. Tədbir iştirakçılarına bildirilib ki, hazırda muzeydə 2 minə yaxın eksponat qorunub saxlanılır. Onlardan 700-ə yaxını ekspozisiyada nümayiş etdirilir.

## Bilik yarışı keçirilib



***Naxçıvan Dövlət Universitetində dünya şöhrətli azərbaycanlı alim, süni intellekt sahəsində qeyri-səlis məntiq nəzəriyyəsinin banisi, professor Lütfi Zadənin xatirəsinə həsr olunmuş tədbir keçirilib.***

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov tədbiri açaraq Lütfi Zadənin şərəfli ömür yolundan, dünya elminə əvəzsiz töhfələrindən, elmi nəzəriyyələrinin tətbiqindən və inkişafından danışıb.

Riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Rövşən Həsənov "Qeyri-səlis çoxluq və qeyri-səlis məntiq nəzəriyyəsi" mövzusunda çıxış edib. Çıxışda alimin elmi tədqiqatlarından, əldə etdiyi uğurlu nəticələrdən bəhs olunub.

Tədbirdə Lütfi Zadənin həyat və yaradıcılığı ilə bağlı videoçarx, eləcə də universitet tələbələrinin alimlə bağlı hazırladıqları sorğu təqdim edilib, alimə həsr olunmuş bilik yarışı keçirilib.

Viktorinada Fizika-riyaziyyat fakültəsinin tələbələri iştirak ediblər. Bir turdan ibarət bilik yarışında tələbələrə riyaziyyat, fizika və informatika fənlərindən üç mövzu və mövzulara aid 5 sual təqdim olunub. Viktorinanın nəticələrinə əsasən Riyaziyyat və informatika müəllimliyi ixtisasının III kurs tələbələri I, Riyaziyyat müəllimliyi ixtisasının II kurs tələbələri II, həmin ixtisas üzrə III kurs tələbələri isə III yerlərə layiq görülüblər.

**Nərmin CABBAROVA**

## Böyük yazıçının anadan olmasının 149 illiyi ilə bağlı tədbir

***Fevralın 22-də Cəlil Məmmədquluzadənin Naxçıvan şəhərindəki ev-muzeyində böyük yazıçının anadan olmasının 149 illiyi ilə bağlı tədbir keçirilib.***

Tədbiri muzeyin direktor əvəzi Kəmalə Tahirova giriş sözü ilə açaraq bildirib ki, böyük yazıçı ədəbiyyat və ictimai fikir tariximizə qüdrətli dramaturq və vətəndaş yazıçı-publisist, "Molla Nəsrəddin" ədəbi məktəbinin banisi kimi əbədi daxil olub. Qüdrətli sənətkarın əbədiyaşar zəngin irsi dünən, bu gün və gələcək nəsillər üçün müstəqillik, Azərbaycançılıq, millilik və vətəndaşlıq nümunəsidir.



Qeyd olunub ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Cəlil Məmmədquluzadə irsinə, onun əsərlərinin tədqiqi və nəşri məsələlərinə böyük diqqət və qayğı göstərib. Məhz ümummilli liderin ölkəmizə hakimiyyəti illərində Cəlil Məmmədquluzadə haqqında yeni və sanballı tədqiqat əsərləri kütləvi şəkildə nəşr olunub, xatirəsinin əbədiləşdirilməsi üçün böyük işlər həyata keçirilib.

Sonra muzeyin bələdçisi Səadət Qasımova böyük yazıçının bədii yaradıcılığından və ictimai fəaliyyətindən söhbət açıb.

Tədbirdə Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbin şagirdləri Cəlil Məmmədquluzadənin satirik şeirlərini bədii qiraət edib, felyetonları və hekayələrindən ibarət səhnəciklər göstəriblər. Sonra muzeyin ekspozisiyasına və sərgiyə baxış olub.

**Əli RZAYEV**

*Yeni nəşrlər*

## Şeir-şeir yazdım bu şəhəri...

***Sosial şəbəkələrdə Məhəmmədağa Şahtaxtlı adına Naxçıvan Şəhər Kitab Evində fevral ayının 24-də Elxan Yurdoğlunun "Ulduz çoxluğu qədər təklik" adlı şeir kitabının təqdimat mərasiminin keçiriləcəyi xəbərini eşidəndə bir oxucu kimi çox sevindim. Təqdimatı gözləmədən kitabı əldə etdim. Etiraf edək ki, çoxumuzun son zamanlarda yeni və yaxşı şeir nümunələri oxumağa mənəvi tələbatımız getdikcə artır. Bu da təbiidir və Elxanın yaradıcılığına yaxşı bələd olduğum üçün onun yeni kitabında yer alan poeziya nümunələrinin oxucu qəlbinə yol tapacağına şübhəm yox idi.***



"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəşr olunan kitab həcmcə kiçik olsa da, burada yer alan şeirlər oxucu qəlbində elə ovqat yaradır ki, həmin şeirlərin ovsunu səni əməlli-başlı tərk-silah edir, imkan vermir ki, ondan ayrılasan. Elxanı yaxından tanıdığıma görə yaxşı bilirəm ki, o, əlinə qələm alandan söz dərgahının hüzurunda həmişə ayıq-sayıq dayanmaq üçün ürəyinin diktəsindən heç zaman uzağa getməyib; həmişə həyat yollarında sözə sığınıb, ilahi sözün qüdrətinə inanıb və düşünürəm ki, bu inamda uduzmayıb. Şeirə, sənətə, poeziyaya məsuliyyətlə və ciddi yanaşıb. Elxana görə, insan üst-başıyla, göz üstə qaşıyla, cavanlıq yaşıyla deyil, sözüylə tanınmalıdır. Əslində, söz uğrunda döyüşə gedənlər bu cür yaşayıb-yaratmasalar, yazdıqları heç kimin duyğularına işıq tutmaz. Çünki şeir işıqdır, şeir arzudur, həsrətdir, ürək yanğısıdır, qəlbin tərcümanıdır. Müdriklərimizin bir qənaətini xatırlayıram: "Deyirlər, insan özü özünü yazır. Amma yazdıqlarında başqası da özünü tapmalıdır. O yazılarda, heç olmazsa, on adam özünü tapa bilmirsə, deməli, sən heç özünü də yaza bilmirsən". Müəllif "Ön söz yerinə" müraciətində oxucularına "Özünüzü tapdınızsa, o şeiri bir də oxuyun" çağırış edir. Bir oxucu kimi mən də bu şeirdə özümü tapdım. Hər misrası Vətən ətirli, hər bəndində Naxçıvan çağlayan bu şeiri oxuduqca qədim Nuh yurduna sevgin bir qədər də artır, sinədolu nəfəs alırsan. Həmin şeir, hər şeydən əvvəl, insanda Naxçıvan torpağına damcı-damcı hopmaq arzusu yaradır. Bu yerdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fikirlərini oxucularla paylaşmaq istəyirəm: ***"...Ədəbi məhsullarda "Vətən" sözünü çox işlətməklə vətənpərvərlik mövzusunda ədəbiyyat yaratmaq mümkün deyil. Vətənpərvərlik yazıçı və ya şairin yaradıcılığının bütün mahiyyətini ifadə etməli, vətəndaşlıq duyğusunun daşıyıcısına çevrilməlidir".*** Elə Elxanın "Şeir-şeir yazdım bu şəhəri" adlı şeirinin də Naxçıvana olan duyğularımızın daşıyıcısına çevriləcəyinə heç bir şübhəm yoxdur. Fikrimcə, bu şeir son illərdə doğma Naxçıvan haqqında yazılan ən güclü şeirlərdən biridir və oxucuların da bu qənaətlə razılaşacağına inanıram. Şeirin bədii dəyəri də bunu deyir. Bu şeirdə Naxçıvanın tərənnümü elə sözlərdən biçilib, elə kəlmələrdən libas geyib ki, bu hiss və duyğularda qəribə bir can yanğısı duyursan. Şeirin dili aydın, axıcı, rəvan, səlis və təsiredicidir:

*Addım-addım gəzdim bu şəhəri,*
*Gül-gül qoxladım,*
*Qucaq-qucaq sevdim.*
*Küçə-küçə vərəqlədim bu şəhəri,*
*Tarix-tarix oxudum,*
*Torpaq-torpaq sevdim.*

Şair Naxçıvanın aşiqidir. İstər əvvəl, istərsə də yeni yazdığı şeirlərində Vətən, yurd sevgisi, el-oba nəfəsi güclüdür, qibtəedicidir. Kəngərli rayonunun Yurdçu kəndində dünyaya göz açmış Elxan şəhərdə yaşasa da, onun ürəyindən su içən qələmi doğma kəndindən heç zaman yan keçmir. Rəmzi mənada, Yurdçu onun üçün Vətənin başlandığı torpaqdır. O, böyük Vətəni bu kiçik yaşayış məntəqəsindən tanıyıb. Doğma yurda sevgi, məhəbbət buradan başlayıb. Bu mövzuda qələmə aldığı şeirləri ilə göstərə bilir ki, onun torpağa olan sevgisi əbədidir, tükənməzdir. Naxçıvanı "canməkan" adlandıran şairin şeirlərini oxuduqca allı-güllü don geyinən nazlı gəlin Batabatı gəzir, Arpaçayın sahilində Xançobanın qəmli nəğməsinə qulaq asırsan. Yallı səsiylə coşursan.

Şairin də yazdığı kimi, ulduzları qısqandıran gecələri ilə bu gün Naxçıvan gözəlliklər sərgisinə çevrilib:

*Canım yansa bir can dəyər,*
*ağrılarım candan çıxar,*
*Bura mənim can evimdir,*
*bura mənim Canməkanım.*
*Ürək əsər, ruh titrəyər, qəlb tövşüyər,*
*can darıxar,*
*Bircə günlük səndən ayrı*
*düşsəm əgər, Naxçıvanım!*

Onun bəzi şeirlərində bir az yorğunluğunu hiss edirsən. Şair illərin keçməsindən, yaşının üstünə yaş gəlməsindən narahatdır. O, şeirlərində daha çox payızdan yazır, payızı vəsf edir. Mənə elə gəlir ki, şair qış fəslindən qorxur, çəkinir. Bəlkə də, ona görədir ki, gənc şair ünvanını əlində bərk-bərk saxlayıb.

Elxanın şeirlərindən hansı ləçəyi çəksək, mənalı və düşündürücüdür. "Çərpələng", "Burada havalar sevgisiz", "Azadlığın vüsalı", "Sənlə bir nəfərəm", "Susmağın dağ havası" və başqa şeirlərindəki həzin çırpıntılar, sevginin qəm göyərdən həsrəti oxucunu kövrək xatirə cığırları ilə ünyetməz, əlçatmaz, lakin unudulmayan bir müqəddəs aləmə aparır. Hissimizi, duyğumuzu bizdən alan zərif misraların ahəngindəki titrək nidalar, ötən günlərin həsrət şimşəyi bizi bir daha tərpədir. Xəyalın, yaddaşın gücünə qəlbimizdə yaşayanları xatırlayırıq.

*Şeirin, sənətin mürəkkəb, dolaşıq, cazibədar zirvələrinə qalxmaq, öz yolunu tapmaq üçün daim axtarışda olan Elxanın sənət əşqinə, gözəllik duyğusuna, iradəsinə, istedadına ürəkdən inanıram. İnanıram ki, bu uzun yolda Elxan bu karvanın sarvanı kimi öz istəyinə çatacaq. Bu yolda ona uğurlar arzulayıram.*

**Sara ƏZİMOVA**
***jurnalist***

## Daxili İşlər Nazirliyinin əməkdaşları arasında birincilik təşkil edilib

***Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları arasında ağırlıq çəki daşlarının qaldırılması və armresling (qol güləşi) üzrə birincilik keçirilib.***

Birinciliyi keçirməkdə məqsəd Bakı şəhərində təşkil olunacaq Daxili İşlər Nazirliyinin əməkdaşları arasında çoxnövçülük yarışında muxtar respublika komandasının heyətini formalaşdırmaq və birinciliyə hazırlaşmaq olub. Yarışın açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Kadrlar şöbəsinin rəisi, polis polkovnik-leytenantı Rəşad Seyidov və nazirliyin "İdman" Cəmiyyətinin rəisi, polis polkovniki Cavanşir Salayev son illər muxtar respublikada idman və idmançılara göstərilən diqqət və qayğıdan danışıb, yarışın qaydaları barədə məlumat veriblər.

14 komandanın tərkibində 100-dən çox idmançı 7 çəki dərəcəsində mübarizə aparıb.

Ağırlıq çəki daşlarının qaldırılması üzrə keçirilən yarışda Rəşad Həsənov (65 kiloqram), Kənan Əliyev (70 kiloqram), Orxan Babayev (75 kiloqram), Sakit Məmmədov (80 kiloqram), Sərxan Zeynalov (85 kiloqram), Cavanşir Yaqubov (90 kiloqram) və Rauf Vəliyev (90+ kiloqram) öz çəki dərəcələrində qalib adını qazanıblar.

Armreslinq birinciliyində isə Rəşad Həsənov, Şahin Hüseynov, Cavid Əhmədov, Elvin Mütəllimov, Sərxan Zeynalov, Vəli Şiraliyev və Allahverdi Qəribov müvafiq olaraq, 65, 70, 75, 80, 85, 90 və 90+ kiloqram çəki dərəcələrində birinci olublar.

Komanda hesabında Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının komandası hər iki yarışda uğurlu çıxış edərək birinciliyin baş mükafatını qazanıb. Xüsusi Təyinatlı Əməliyyat Taqımı ikinci, Babək Rayon Polis Şöbəsinin komandası isə üçüncü olub.

Sonda qalib idmançılara diplomlar təqdim edilib.

**✍ Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Sadıxov Əfqan Asəf oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 162